**Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təkliflər verilməsi haqqında**

**Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun**

**QƏRARI**

« 23 » mart 2004-cü il

Azərbaycan Respublikası Ali məhkəməsinin Plenumu Ali Məhkəmənin hakimlərindən və digər məhkəmələrdən daxil olan təklif və sorğuları müzakirə edərək hesab edir ki, Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İnzibati Xətalar Məcəlləsinə əlavələr və dəyişikliklər edilməsi barədə Milli Məclisə qanunvericilik təşəbbüsü qaydasında təkliflər verilməsinə ehtiyac vardır.

Plenum hesab edir ki, həmin təkliflərin qəbul edilməsi qanunların daha anlaşıqlı olmasına, tətbiqinin asanlaşdırılmasına, bu qanunların hamı tərəfindən eyni cür başa düşülməsinə və nəhayət vətəndaşların hüquq və azadlıqlarının qorunmasına xidmət edərdi.

Plenum qeyd edir ki, nəticəsindən asılı olmayaraq ehtiyatsızlıqdan törədilən cinayət əməlləri ağır cinayətlər sırasına aid edilə bilməz. Bu səbəbdən də cinayətlərin təsnifatından bəhs edən 15-ci maddədə müvafiq dəyişikliklər edilməsi zəruridir.

CM-nin 50-ci maddəsinə görə hərbi xidmət üzrə məhdudlaşdırma cəzası yalnız bağlaşma (kontrakt) əsasında hərbi xidmət keçən hərbi qulluqçulara tətbiq oluna bilər. Lakin «Hərbi xidmət haqqında» Azərbaycan Respublikasının 1992-ci il 3 noyabr tarixli Qanununun 13-cü maddəsinə, habelə Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli Qanunu ilə təsdiq edilmiş «Hərbi xidmətkeçmə haqqında» Əsasnamənin 27-ci maddəsinə görə bağlaşma yolu ilə hərbi xidmətə yalnız xarici dövlətlərin vətəndaşları qəbul olunurlar. Deməli bu növ cəzaya yalnız xarici dövlətlərin vətəndaşları məruz qala bilərlər. Halbuki Cinayət Məcəlləsinin hərbi xidmət əleyhinə olan cinayətlərə aid fəslinin elə maddələri var ki, onların sanksiyalarında yalnız intizam xarakterli hərbi hissədə saxlama və hərbi xidmət üzrə məhdudlaşdırma cəzası nəzərdə tutulur (331.1, 331.2, 335.1, 340.1 və 350.1-ci maddələr). Nəzərə alınsa ki, intizam xarakterli hərbi hissədə saxlama cəzası yalnız çağırış üzrə müddətli hərbi qulluqçular (əsgər, matros, çavuşlar) haqqında, hərbi xidmət üzrə məhdudlaşdırma cəzası isə yalnız xarici dövlətlərin Azərbaycan Respublikasının Silahlı Qüvvələrində bağlaşma yolu ilə xidmət keçən vətəndaşları haqqında tətbiq edilə bilər, onda aydın deyildir ki, adı çəkilən 5 maddədə nəzərdə tutulmuş cinayətləri törətmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin zabit heyətindən olan şəxslərə – Azərbaycan vətəndaşlarına hansı cəza növü tətbiq olunmalıdır. Göründüyü kimi CM-nin 50-ci maddəsinin mətnində düzəliş aparılmalıdır.

Ehtiyatsızlıqdan törədilmiş cinayət əməlləri ağır cinayətlər kateqoriyasından çıxarıldığı təqdirdə belə əməllər törətmək üstündə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər cəza müddətindən asılı olmayaraq məntəqə tipli cəza çəkmə müəssisəsində saxlanmalıdır. Bu səbəbdən də CM-nin 56.1.1 və 56.1.2-ci maddələrində müvafiq dəyişikliklər aparılmalıdır.

68-ci maddədə cəzaların toplanması zamanı müddətlərin müəyyən edilməsi qaydasından, müxtəlif növ cəzaların toplanması zamanı müddətlərin hesablanması, bir sıra cəza növlərinin isə toplanmadan müstəqil icra olunmasından bəhs edilir. Lakin 68.2-ci maddədə görünür diqqətsizlik üzündən «azadlığın məhdudlaşdırılması» növündə cəzanın adı çəkilməmişdir. Plenum hesab edir ki, 68.2-ci maddədə «hərbi xidmət üzrə məhdudlaşdırma» sözlərindən sonra «azadlığın məhdudlaşdırılması» sözləri əlavə edilməlidir.

Vətəndaşın şərəf və ləyaqətini ləkələyən və ya nüfuzdan salan, yaxud onun şərəf və ləyaqətini nəlayiq formada qəsdən alçaltmaqdan idarət olmaqla hüquqi dildə «böhtan» və «təhqir» adlanan əməllərin cəzalandırılmalı əməllər olması heç kəs tərəfindən mübahisə edilmir. Buna baxmayaraq cinayət qanunvericiliyinə görə bu əməllər yalnız kütləvi çıxışlarda, kütləvi nümayiş etdirilən əsərdə və ya informasiya vasitələri ilə verildikdə və yayıldıqda cinayət məsuliyyətinə səbəb olur (CM-nin 147, 148-ci maddələri), Kütləvi çıxışlar, informasiya vasitələri ilə əlaqəsi olmayan təhqir və böhtan üçün isə nəinki cinayət qanunvericiliyində, hətta inzibati qanunvericilikdə də məsuliyyət nəzərdə tutulmamışdır.Plenum hesab edir ki,bu, qanunvericilikdəki boşluqla əlaqədardır. Belə hüquq pozuntusuna məruz qalmış şəxslərin hüquqlarının mülki hüquq normaları ilə qorunması ya effekt vermir, ya da prosedur baxımından mürəkkəbliyi üzündən vətəndaşları qane etmir.

Qeyd etmək lazımdır ki, hərbi qulluqçular üçün təhqir üstündə cinayət məsuliyyəti nəzərdə tutulmuşdur. (331-ci maddə). Eyni əməl üçün məsuliyyət məsələsində hərbi qulluqçular və mülki şəxslər arasında fərq qoyulması məntiqə də uyğun deyil. Bu səbəbdən də hesab edilir ki, cinayət qanunvericiliyinə müvafiq dəyişiklik edilməlidir. Yəni CM-nin 147 və 148-ci maddələri yeni redaksiyada verilməlidir.

CM-nin bir çox maddələrində mənzil və ya yaşayış sahəsi ilə əlaqədar cinayət hadisələrindən danışılır. Təcrübədə «mənzil» və «yaşayış sahəsi» terminləri altında məhz nəyin başa düşülməsi çətinlik yaratdığından CM-nin 157-ci maddəsinə «qeyd» əlavə edilməklə bu terminə tərif verilməsi məqsədəuyğundur.

Oğurluq, yəni özgənin əmlakını gizli olaraq talama ən çox yayılmış cinayət hadisələrindəndir. CM-nin 177-ci maddəsinin dispozisiyası əvvəlki qanunvericilikdən əhəmiyyətli dərəcədə fərqlənir. Mövcud qanunun tətbiqi istintaq-məhkəmə təcrübəsində xeyli çətinliklərə səbəb olur. Belə ki, yeni qanunla gizli oğurluq o vaxt cinayət məsuliyyətinə səbəb olur ki, oğurlanmış əmlakın dəyəri şərti maliyyə vahidi məbləğinin 30 mislindən yuxarı olsun. Bu səbəbdən bir çox cibgirlər cinayət məsuliyyətindən kənarda qalır. Nəzərdən qaçırmaq olmaz ki, 165000 manat pul pensiyaçılar və ya tələbələr üçün heç də cüzi məbləğ hesab oluna bilməz. Bundan başqa

həmin maddədə əmlak zərərinə məruz qalmış vətəndaşla kifayət qədər maliyyə imkanı olan iri şirkətlər, korporasiyalar arasında fərq qoyulmur. Nəhayət, maddədə vətəndaşların yaşadığı mənzildən oğurluq edilməsi ilə tövlədən, qaracdan, hindən və digər saxlanç yerlərindən oğurluq edilməsi arasında fərq qoyulmur ki, bunu da düzgün hesab etmək olmaz.

Ona görə də Plenum hesab edir ki, CM-nin 177-ci maddəsinin dispozisiyasının təklif edilən qaydada verilməsi məqsədəuyğundur. Maddənin özündə dəyişiklik edildikdə onun qeydində və müvafiq dəyişikliklər edilməlidir.

Əxlaqsızlıq yuvaları saxlamaq üstündə məsuliyyətdən bəhs edən CM-nin 244-cü maddəsinin dispozisiyasında məntiqsizlik vardır. Qanunun mənasına görə bu maddədə nəzərdə tutulan əxlaqsızlıq yuvası dedikdə sistematik olaraq fahişəliklə məşğul olmaq məqsədilə uyğunlaşdırılmış binalar, mənzillər və s. yerlər təqdim edilməsi başa düşülür. Belə əməllər sistematik olmadıqda həmin cinayətin tərkibi yarana bilməz.

CM-nin 244-cü maddəsinin məzmunundan isə belə çıxır ki, bir dəfə bu məqsədlə bina, mənzil təqdim edilməsi həmin cinayətin tərkibini yaradır. Çünki CM-nin 244-cü maddəsində belə əməllərin təkrar törədilməsi ağırldaşdırıcı hal kimi nəzərdə tutulmuşdur.

244-cü maddənin dispozisiyasının qeyri-məntiqliyi üzündən indiyə kimi məhkəmələrdə CM-nin 244.1-ci maddəsi ilə işə baxılmamışdır. Yəni bu məzmunda bütün əməllər 244.2-ci maddə ilə tövsif edilmişdir.

Hazırkı məhkəmə təcrübəsində aksiz markaları hazırlayan və satanların əməlləri qiymətli kağızların hazırlanması və ya satılmasına görə məsuliyyət müəyyən edən CM-nin 204-cü maddəsi ilə tövsif edilir. Halbuki, Mülki Məcəllənin 988-1078-ci maddələrinə görə aksiz markaları qiymətli kağızlar kateqoriyasına aid deyildir. Plenum hesab edir ki, anlaşılmazlığı aradan qaldırmaq məqsədilə CM-nə yeni 320-1-ci maddə əlavə edilməsi məqsədəuyğundur.Eyni səbəbdən aksiz markalarını oğurlamağa görə məsuliyyət barədə CM-nə yeni 325.3-cü maddə əlavə edilməsi zərurəti də meydana çıxır.

CM-nin 330-cu maddəsində rəisə qarşı zorakı hərəkətlər etməyə görə cinayət məsuliyyəti nəzərdə tutulmasına baxmayaraq, rəisin tabeliyində olan şəxslərə qarşı zorakı hərəkətlər etməsi, bu hərəkətlərin az ağır və ağır nəticələrə səbəb olmasına dair Məcəllədə ayrıca maddə yoxdur. Buna görə də təcrübədə bu xarakterli cinayət əməllərinin istintaq və məhkəmə orqanları tərəfindən tövsif edilməsində çətinliklər yaranır. Belə ki , rəisin öz tabeliyində olan şəxsi döyməsi və ya ona işgəncə verməsi əməli CM-nin 331.3-cü maddəsində nəzərdə tutulmuşdur. Bu maddəyə əsasən rəisin tabeliyində olan şəxsi döyüb, işgəncə verməsi müxtəlif xəsarətlər yetirilməsinə səbəb olmadıqda istintaq və məhkəmə orqanları tərəfindən həmin hərəkətlər CM-nin 331.3-cü maddəsi ilə tövsif edilir. Rəisin hərəkətləri zərərçəkmişin sağlamlığına yüngül, az ağır və ya ağır xəsarət yetirilməsinə səbəb olduqda isə digər maddələrə istinad etmək zərurəti yaranır. Yəni belə hallarda istintaq və məhkəmə orqanları 331.3-cü maddəsi ilə

yanaşı CM-nin 341 və bəzən də xəsarətin dərəcəsindən asılı olaraq 126,128-ci maddələrindən birinə istinad edirlər. Bu da həmin əməllərin tövsifi məsələsində çətinliklər yaratmaqla, təqsirləndirilən şəxsin törətdiyi bir əmələ görə CM-nin bir neçə maddəsi ilə məsuliyyətə cəlb edilməsinə səbəb olur. CM-nə 330-1-ci maddənin əlavə edilməsi bu anlaşılmazlıqların aradan qaldırılmasını səbəb olardı. Bu maddə CM-nə əlavə edildikdə CM-nin 331.3-cü maddəsinin saxlanılmasına zərurət qalmır və həmin maddə Məcəllədən xaric edilməllidir.

Həm 333.2-ci maddədən, həm də 333.3-cü maddədə eyni kateqoriyadan olan subyektin, yəni kontrakt üzrə xidmət edən şəxsin on gündən artıq, lakin bir aydan çox olmamaqla hərbi hissəni tərk etməsi üçün məsuliyyət müəyyən edilmişdir. Bu isə təcrübədə təqsirləndirilən şəxslərin əməllərinin müxtəlif maddələrlə tövsif edilməsinə səbəb olur. Plenum hesab edir ki, 333.2-ci maddədən «və ya kontrakt» sözlərini çıxarmaqla bu anlaşılmazlığı aradan qaldırmaq olar.

Rəisin və ya vəzifəli şəxsin hakimiyyətdən və ya öz qulluq mövqeyindən sui-istifadə etməsi, hakimiyyət həddini aşması, hakimiyyətdən qəsdən istifadə etməməsinin ağır nəticələrə səbəb olması hərbi intizamın, hərbi hissə və ya bölmənin döyüş hazırlığının ciddi formada pozulması, fəlakət və ya qəza baş verməsi, döyüş texnikasının məhv edilməsi, böyük maddi zərər vurulması, şəxsin sağlamlığına ağır zərər vurulması vəzifəli şəxsin silah tətbiq etməsi və ya cinayətin bir qrup şəxslə qəsdən törədilməsi cinayətin ictimai təhlükəlilik dərəcəsini artırır. Nəzərə almaq lazımdır ki, bu cinayət həmişə qəsdlə törədilən cinayətdir.

Həm əvvəlki Cinayət Məcəlləsində, həm də hazırda qüvvədə olan CM-nin 2001-ci ilin iyul ayında edilən dəyişikliyə qədər qüvvədə olan redaksiyada həmin əməl ağır cinayətlər qrupuna aid edilmişdi. Ağır cinayətə görə az ağır həddə cəza təyin edilməsi cəza təyinetmənin ümumi əsaslarına ziddir. Plenum hesab edir ki, CM-nin 341.2.3-cü maddəsinin sanksiyası real vəziyyətə uyğunlaşdırılmalıdır.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsi ilə əlaqədar verilən təkliflər cinayət-prosessual qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədardır. Belə ki, CM-nin 128 və 132-ci maddələrində nəzərdə tutulan əməllər (qəsdən sağlamlığa yüngül zərər vurma və döymə cinayətləri) mahiyyət etibarilə xüsusi ittihamlıdır. CPM-nin 37.3-cü maddəsində bu cinayətlərin ictimai-xüsusi ittiham qaydasında təqib olunan əməllər sırasına aid edilməsi faktiki olaraq bu cinayətlər üzrə zərərçəkmişin təqsirləndirilən şəxslə barışması ilə əlaqədar cinayət işinin xitam edilməsinə imkan vermədiyindən (39.1.8) bu cinayət hadisələrinin sayının son illərdə süni surətdə təxminən 10 dəfə artmasına səbəb olmuşdur.

Belə bir faktı da qeyd etmək lazımdır ki, böhtan cinayətindən bəhs edən CM-nin 147.3-cü maddəsində 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulduğu halda bu cinayət xüsusi ittihamlı cinayətlər sırasına daxildir və zərərçəkmiş barışdıqda işin xitam olunmasına səbəb olur. Lakin, xəsarət yetirməklə nəticələnməyən döymə hadisəsi üçün qanunda ümumiyyətlə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmadığı halda (CM-nin 132-ci maddəsi) bu cinayət hadisəsi CPM-nin 37.2-ci

maddəsinə görə ictimai-xüsusi ittihamlı hadisə hesab olunur və zərərçəkmiş barışsa da cinayət təqibinə xitam verilə bilməz. Çünki buna CPM-nin 39.1.9-cu maddəsinin müddəası mane olur.

Bu səbəblərdən CPM-nin 37.2 və 37.3-cü maddələrində müvafiq dəyişikliklər edilməlidir.

Plenum hesab edir ki, CPM-nin 41.6 və 49.4.2-ci maddələri Məcəllədən çıxarılmalıdır. Belə ki, 41.6-cı maddə 41.3-cü maddənin təkrarıdır. İkinci təklif onunla əlaqədardır ki, Cinayətin törədilməsi ilə onun gizlədilməsi və ya xəbər verilməməsinə dair ittihamlara bir icraatda baxılarkən məhkəmə təcrübəsində problem yaranmayıb. Bunlara ayrı-ayrılıqda baxılmasına dair göstəriş problem yarada bilər. Məsələn, cinayətin icraçıları kimi məsuliyyətə alınan şəxslərdən birinin əməli məhkəmə tərəfindən xəbər verməmə kimi tövsif olunarsa belə işlərə ayrı icraatda baxılması ümumiyyətlə mümkün deyildir.

41.7-ci maddədən də ikinci cümlənin çıxarılmasına ehtiyac vardır. Çünki, maddədən belə çıxır ki, zərərçəkmiş şikayətində israr etdikdə də şikayət üzrə icraata xitam verilməlidir.

Plenum üzvlərinin fikrincə 163.5-ci maddənin ikinci hissəsində «seçilməsi» sözündən sonra «və ya bundan imtina edilməsi» sözləri əlavə edilməlidir. Belə ki, 163.5-ci maddənin birinci cümləsində məhkəmə tərəfindən təqsirləndirilən şəxs haqqında ev dustaqlığının qətimkan tədbiri qismində seçilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edilməsindən bəhs edilir. Təbii ki, ev dustaqlığının seçilməsi barədə qərardan apellyasiya şikayəti və ya protesti vermək mümkündürsə, onda ev dustaqlığı qismində qətimkan tədbirinin seçilməsindən imtina edilməsi barədəki qərardan da şikayət verilməsi hüququ nəzərdə tutulmalıdır.

Plenum hesab edir ki, xüsusi qərarlar çıxarılmasından bəhs edən 300.3, 318.3, 391.10-cu maddələri Məcəllədən çıxarılmalıdır. Çünki birinci instansiya məhkəməsinin hazırlıq iclasında məhkəmə baxışından iş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilərkən, Apellyasiya Məhkəməsində işlərə ilkin baxılarkən işin nəticəsi üzrə yekun qərarı qəbul edilmədiyindən həmin mərhələlərdə xüsusi qərar çıxarmağa ehtiyac yoxdur. Həmin mərhələlərdə aşkar edilmiş nöqsanlara görə iş üzrə yekun qərar qəbul edilərkən də xüsusi qərar çıxarıla bilər.

Bundan əlavə hazırkı qanunvericilikdə eyni mərhələdə, yəni birinci instansiya məhkəməsinin hazırlıq iclasında iki yerdə (300.3 və 307-ci maddələr) xüsusi qərar çıxarılması nəzərdə tutulmuşdur ki, bu da məntiqsizdir.

Nəhayət, 318.2-ci maddəyə əsasən zərurət olduqda təqsirləndirilən şəxsə 10 gün ərzində yeni ittiham verilməsi üçün cinayət işi prokurora göndərilir. Bu zaman xüsusi qərar çıxarıldıqda və bu qərardan şikayət, yaxud protest verildikdə işin prokurora, yaxud Apellyasiya Məhkəməsinə göndərilməsi problemi meydana çıxır.

300.5-ci maddədə 300.1.6 rəqəmi 300.1.5 rəqəmi ilə əvəz edilməlidir. 300.5-ci maddədən belə çıxır ki, hazırlıq iclasında cinayət işi ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarıldıqda dövlət ittihamçısının bu qərardan apellyasiya protesti vermək hüququ yoxdur. Şübhəsiz ki, burada diqqətsizliyə yol verilmişdir. Çünki CM-nin 384.1.5-ci maddəsi birbaşa belə hallarda dövlət ittihamçısının verdiyi protestə baxılmasından bəhs edir.

Plenum hesab edir ki, Məcəlləyə aşağıdakı məzmunda 355.5-ci maddə əlavə edilməlidir.

355.5. Birinci instansiya məhkəməsinin xüsusi qərarından həmin Məcəllənin 384-cü maddəsində göstərilən müddətlərdə apellyasiya şikayəti və ya protesti verilə bilər.

Belə bir əlavənin edilməsi onunla əlaqədardır ki, xüsusi qərarlar çıxarılması bir qayda olaraq ayrı-ayrı fiziki və ya hüquqi şəxslərin mənafeyinə toxunduğundan, bir sıra hallarda onlar haqqında intizam tənbehi, inzibati cəzaların tətbiq olunmasına, hüquqlarının məhdudlaşdırılmasına səbəb olur. Belə olduqda xüsusi qərardan maraqlı şəxslərin onların şikayət və ya dövlət ittihamçısının protest vermək hüququ tanınmalıdır. Bu səbəbdən də Məcəlləyə 355.5, 406.5, 419.15-ci maddələrin də əlavə olunması təklif olunur.

CPM-nin 162.1.2-ci maddəsi ilə 357.0.4-cü maddələri bir-birilə ziddiyyət təşkil edirlər. 162-ci maddəyə görə həbsdə olan şəxs məhkəmə tərəfindən intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edildikdə həbsdən azad edilə bilməz. CPM-nin 357.0.4-cü maddəsinə görə isə həbsdə olan şəxsə yalnız azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəza verildikdə o, həbsdən azad edilməlidir. Belə çıxır ki, intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxs də dərhal məhkəmə iclas zalında həbsdən azad edilməlidir.

Hesab edirik ki, bu ziddiyyəti aradan qaldırmaq üçün intizam xarakterli hərbi hissədə saxlama cəzasının mahiyyətini, habelə CM-nin 68.1.1-ci maddəsinin tələblərini nəzərə almaqla CPM-nin 357.0.4-cü maddəsində müvafiq dəyişikliklər edilməlidir.

Məcəlləyə aşağıdakı məzmunda 382.3-cü maddə əlavə edilməsi zəruridir.

382.3. Hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış qərarlardan apellyasiya şikayəti və ya protesti üzrə icraat bu Məcəllənin 506-521-ci maddələrinin müddəalarına müvafiq olaraq apellyasiya instansiyası məhkəməsi tərəfindən aparılır.

Belə ki, 2/VII-01-ci il tarixli Qanun qəbul edilənə (Məcəlləyə 520.7-ci maddə əlavə olunana) qədər hökm və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış qərarlara apellyasiya şikayəti və ya protesti əsasında baxılması nəzərdə tutulmurdu. Bu səbəbdən də apellyasiya instansiyası məhkəməsinin səlahiyyətlərindən bəhs edən 382-ci maddədə bu kateqoriyadan olan

işlərə baxılması nəzərdə tutulmayıb. Yeni Qanun 382-ci maddəyə bu məzmunda əlavə edilməsini zəruri edir.

408.3-cü maddədən «cinayət işində iştirak etməyə cəlb olunmayan, hökm və ya məhkəmənin digər yekun qərarı ilə maraqlarına toxunan şəxslərin müraciətinə əsasən» və mötərizədəki «yuxarıda göstərilmiş şəxslərin müraciətləri olduqda» sözlərinin çıxarılmasına ehtiyac vardır.

Təcrübədə elə hallar olur ki, qəbul edilmiş açıq-aşkar qanunsuz məhkəmə qərarının ləğv edilməsində heç kəs maraqlı olmur. Belə vəziyyətdə həmin qanunsuz qərarın ləğv edilməsindən ötrü Ali Məhkəmənin Sədrinə təsir mexanizmi verilməsi təbiidir.

Plenum üzvlərinin fikrincə Məcəlləyə aşağıdakı məzmunda 409.1.4-cü maddə əlavə edilməlidir.

409.1.4. Tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair qərarlardan barəsində tibbi xarakterli məcburi tədbir tətbiq edilmiş şəxsin müdafiəçisi və ya qanuni nümayəndəsi.

Bu təklif onunla əlaqədardır ki, CPM-nin 383.1.4-cü maddəsinə əsasən tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair qərardan apellyasiya şikayəti verilə bilər. Buna baxmayaraq bu kateqoriyalı işlər üzrə Apellyasiya Məhkəməsinin qərarından kassasiya şikayəti verilməsi qanunvericilikdə nəzərdə tutulmamışdır. Bu boşluğun doldurulması zəruridir.

Məcəllənin 410.1.2, 410.1.3, 410.1.4-cü maddələrində redaksiya dəyişikliyi edilməsinə ehtiyac vardır.

Belə ki, CPM-nin 408-ci maddəsinə görə kassasiya instansiyası məhkəməsi Apellyasiya instansiyası məhkəmələri tərəfindən çıxarılmış hökm və qərarlardan, habelə andlı iclasçıların iştirakı ilə birinci instansiya məhkəməsi tərəfindən çıxarılmış hökmlərdən verilən kassasiya şikayəti və ya kassasiya protestlərinə baxan məhkəmə orqanıdır. 410.1.2, 410.1.3 və 410.1.4-cü maddələrin məzmunundan isə belə çıxır ki, birinci instansiya məhkəməsinin hökm və qərarlarından da kassasiya şikayəti və ya protesti verilə bilər.

Həm də burada kassasiya şikayəti və protestinin verilmə müddəti hökmlərin və qərarların çıxarıldığı vaxtla əlaqələndirilmişdir. Halbuki bu müddət Apellyasiya Məhkəməsinin qərarının çıxarıldığı vaxtdan hesablanmalıdır. Çünki bəzi hallarda (məsələn Apellyasiya Məhkəməsi tərəfindən ekspertizalar keçirilməsi, məhkəmə iclasının istintaq aparmaqla keçirilməsi və s.) Apellyasiya Məhkəməsində isə nəticə verilməsi aylarla uzanır.

Belə hallarda müxtəlif işlər üzrə kassasiya şikayəti və ya protesti vermək hüququ olan prosessual subyektlər qeyri-bərabər vəziyyətdə olur. Təbiidir ki, belə hallarda kassasiya

şikayəti və ya protesti vermək müddəti Apellyasiya Məhkəməsi qərarının çıxarıldığı vaxtdan hesablanmalıdır.

Kassasiya şikayətində və ya protestində məhkuma təyin olunmuş cəzanın yüngülləşdirilməsi məsələsi də qoyula bilər. 410.1.4-cü maddədə görünür diqqətsizlik üzündən bu məsələ öz əksini tapmamışdır.

411.1, 411.2.1, 411.2.2. və 411.4-cü maddələri nəzərdən keçirilərkən məlum olur ki, həmin maddələrdə «409.1-ci maddəsində» ifadələri «409.1 və 409.7-ci maddələrində» ifadələri ilə əvəz olunmalıdır çünki cinayət prosesi zamanı məhkəmə iclasında ittiham və müdafiə tərəfi bərabər hüquqlara malik olduğundan dövlət ittihamçısının da kassasiya protestinin müddətinin bərpa edilməsi barədə məhkəməyə müraciət etmə hüququ tanınmalıdır.

Plenum hesab edir ki, Məcəlləyə aşağıdakı məzmunda 411.2.3-cü maddə əlavə edilməlidir.

Bu Məcəllənin 409.1 və 409.7-ci maddələrində göstərilən şəxslərin kassasiya şikayəti və ya kassasiya protesti vermək hüququndan məhrum edən digər hallar olduqda.

Belə əlavənin edilməsi onunla əlaqədardır ki, CPM-nin 411-ci maddəsinə əsasən yalnız iki halda, yəni CPM-nin 409.1-ci maddəsində göstərilən şəxslərin səhhətinin uzun müddətli fiziki və ya psixi pozuntularına səbəb olan ağır xəstəliyə tutulması, habelə həmin şəxsləri kassasiya şikayəti və ya protesti vermək imkanından məhrum edən fövqəladə hadisə baş verməsi hallarında kassasiya şikayəti və ya protesti vermə müddəti bərpa oluna bilər. Halbuki həyatda digər hallar da CPM-nin 409.1-ci maddəsindcə göstərilən şəxsləri vaxtında kassasiya şikayəti və ya protesti vermək hüququndan məhrum edə bilər. (məsələn şəxsin uzun müddətli xarici ezamiyyədə olması, xaricdə müalicə olunan qohumuna baş çəkməsi, məhkəmə işçilərinin təqsiri üzündən qərarların maraqlı şəxsə vaxtında verilməməsi, sənədlərin itirilməsi və s.)

CPM-nin 414-cü maddəsində kassasiya şikayətinin və ya protestinin geri götürülməsi hallarında neçə qərar qəbul edilməsi göstərilməmişdir. Bu vəziyyət isə təcrübədə eyni məzmunlu kassasiya şikayətinin və ya protestinin onu geri götürmüş şəxslər tərəfindən sonradan bir neçə dəfə kassasiya instansiyası məhkəməsinə təqdim etməsinə səbəb olur.

Məlumdur ki, kassasiya instansiyası məhkəməsinə kassasiya şikayəti və ya protesti daxil olmasından onun baxılmasına qədər olan müddət CPM-nin 415-418-cü maddələri ilə nəzərdə tutulan xeyli prosessual hərəkətlərin (cinayət işlərinin tələb edilməsi, öyrənilməsi, sənədlərin surətlərinin çıxarılıb maraqlı tərəflərə göndərilməsi, rəy tərtib edilməsi, baxılmaq üçün təyin edilməsi və sair) edilməsi ilə bağlıdır. On səkkiz ay ərzində dəfələrlə kassasiya şikayəti və ya protestinin verilməsi və geri götürülməsi zamanı belə hərəkətlər təkrar edilməlidir.

Məntiqə görə məhkəmə qərarlarından kassasiya şikayəti və ya kassasiya protesti vermiş şəxsin onları könüllü olaraq geri götürməsi onların həmin qərarla razılaşması deməkdir

və belə hallarda həmin şikayət və protest üzrə kassasiya icraatı bitmiş hesab edilməlidir. Bu səbəbdən də 414-cü maddəyə müvafiq əlavələr edilməsi zəruridir.

422-ci maddədə zərərçəkmişin əlavə kassasiya qaydasında şikayət vermək hüququ nəzərdə tutulmamışdır. Bu isə Konstitusiya Məhkəməsinin 10/III-02-ci il tarixli qərarına ziddir. Plenum hesab edir ki, CPM-nin 422-ci maddəsinə müvafiq dəyişiklik edilməlidir.

Məcəllənin 427-ci maddəsinə də əlavələr edilməsinə ehtiyac vardır.

Belə ki, 427-ci maddədə əlavə kassasiya şikayəti və ya protestinə baxılarkən yalnız üç növ qərar qəbul edilməsi nəzərdə tutulur. Təcrübədə elə hallar olur ki, Plenumda iş üzrə qəti qərar qəbul edilməsi mümkün olmur. Bəzən əlavə kassasiya şikayəti əsasında işə baxılarkən məlum olur ki, işdə məhkumun anlaqlı olmasına şübhə doğuran ciddi məlumatlar olmasına, bu barədə vaxtında vəsatətlər verilməsinə baxmayaraq o, nə ibtidai istintaq, nə də məhkəmə istintaqları vaxtı məhkəmə psixiatrik ekspertizasından keçirilməmişdir. Bu probel yalnız işin Apellyasiya Məhkəməsi baxışına qaytarılması yolu ilə aradan qaldırıla bilər.

Eynilə də CPM-nin 467-ci maddəsinə əsasən yeni açılmış hallar üzrə Ali Məhkəmənin Plenumu CPM-nin 427-ci maddəsində nəzərdə tutulan qərarlardan birini qəbul edə bilər. Məlum olduğu kimi yeni açılmış hallar olduqda iş ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılır. 427-ci maddədə isə belə qərar növü nəzərdə tutulmur.

Məcəllənin 453-cü maddəsinə də müvafiq dəyişiklik edilməsi zəruridir.

Belə ki, CPM-nin 163.2 və 164.2-ci maddələrinə əsasən ev dustaqlığı və girovun qətimkan tədbirləri qismində seçilməsi məsələsinə məhkəmə tərəfindən yalnız müdafiə tərəfinin vəsatəti əsasında həbs qətimkan tədbirinin seçilməsi haqqında qəbul olunmuş qərarın əvəz edilməsi kimi baxıla bilər.

CPM-nin 163.5 və 164.6-cı maddələrinə görə həmin məzmunda vəsatətlərə baxılarkən ev dustaqlığının qətimkan tədbiri qismində seçilməsi və ya bundan imtina edilməsi, habelə girovun qətimkan tədbiri qismində tətbiq olunması və ya bundan imtina edilməsi barədə qərarlar qəbul edilə bilər. Belə hallarda məhkəmənin qəbul etdiyi qərarlardan apellyasiya şikayəti və ya protesti verilə bilər.

Verilmiş apellyasiya şikayətləri və ya protestləri üzrə Apellyasiya Məhkəməsinin qəbul edə biləcəyi qərar növlərinin siyahısı CPM-nin 453-cü maddəsində verilmişdir. Həmin maddəyə görə belə hallarda Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin qərarının dəyişdirilmədən saxlanması, həbs qətimkan tədbirinin seçilməsi barədə qərarın ləğv edilməsi və təqsirləndirilən şəxsin həbsdən azad edilməsi, həbs qətimkan tədbirinin seçilməsindən imtina barədə hakimin qərarının ləğv edilməsi və təqsirləndirilən şəxs barəsində qətimkan tədbiri kimi həbsin seçilməsi barədə qərarlardan birini qəbul edə bilər.

Göründüyü kimi qanunda ev dustaqlığı və ya girovun qətimkan qismində seçilməsi və ya bundan imtina barədə hakimin qərarından apellyasiya şikayəti vermək hüququ nəzərdə tutulduğu halda bu şikayətlər və ya protestlər üzrə yuxarı məhkəmənin hansı növ qərar qəbul edəcəyi 453-cü maddədə öz əksini tapmamışdır.

Ona görə də bu məsələ 453-cü maddədə öz əksini tapmalıdır.

Məcəllənin 466.9-cu maddəsində görünür diqqətsizlik üzündən «şikayət» sözü ilə yanaşı «protest» sözü işlədilməmişdir.

Cinayət Məcəlləsinin 177-ci maddəsinin qeydindəki şərti maliyyə vahidi məbləğində dəyişiklik edilməsi ilə əlaqədar Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 69-cu maddəsinə də müvafiq dəyişikliklər edilməli və aradakı «otuz mislindən» sözləri «on mislindən» sözləri ilə əvəz olunmalıdır.

Qeyd edilənlərə əsasən Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiyasının 96-cı və «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikası Qanununun 79-cu maddəsini rəhbər tutaraq

**QƏRARA ALIR:**

Azərbaycan Respublikasının Cinayət, Cinayət Prosessual Məcəllələrinə və İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Milli Məclisinə qanunvericilik təşəbbüsü qaydasında təkliflər verilsin.

**S.C.Həsənova**
**Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri**